**https://doi.org/10.58225/tim.2025-3-292-297**

**Ü.S.Mehdiyev**
***rektorun müşaviri, Azərbaycan Dövlət Pedaqoji Universiteti***
***umid.mehdiyev@adpu.edu.az***
**S.L.Quliyev**
***magistrant, Azərbaycan Turizm və Menecment Universiteti***
***quliyevservin085@gmail.com***

*Məqalə redaksiyaya daxil olub 01.10.2025*
*The article was received by editorial board on 01.10.2025*
*Статья принята к печати 01.10.2025*

# İNFRASTRUKTUR İNVESTİSİYALARININ İNKİŞAFINDA DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN ROLU VƏ SƏMƏRƏLİLİK PROBLEMLƏRİ

**Xülasə**

*İnfrastruktur investisiyalarının inkişafında dövlət tənzimlənməsi iqtisadiyyatın dayanıqlı böyüməsi və sosial rifahın yüksəldilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Dövlət tənzimlənməsi əsasən investisiya prioritetlərinin müəyyənləşdirilməsi, hüquqi-normativ bazanın formalaşdırılması, maliyyə mənbələrinin cəlb olunması və layihələrin icrasında şəffaflığın təmin edilməsi vasitəsilə həyata keçirilir. İnfrastruktur layihələri uzunmüddətli kapital qoyuluşları tələb etdiyindən, onların maliyyələşdirilməsi və risklərinin bölüşdürülməsi dövlətin koordinasiyaedici rolunu zəruri edir. Bu prosesdə dövlət–özəl tərəfdaşlığı mexanizmləri xüsusi əhəmiyyət kəsb edir. Bununla yanaşı, tənzimləmə zamanı səmərəlilik problemləri də ortaya çıxır. Layihələrin gecikməsi, vəsaitlərin məqsədyönlü xərclənməməsi, korrupsiya riskləri və qiymətləndirmə mexanizmlərinin zəifliyi investisiyaların effektivliyini azalda bilər. Digər tərəfdən, qeyri-rasional planlaşdırma və regional bərabərsizliklər sosial-iqtisadi inkişafda disbalans yaradır. Buna görə də, infrastruktur investisiyalarında dövlət tənzimlənməsinin rolu yalnız maliyyə təminatı ilə məhdudlaşmamalı, həm də strateji planlaşdırma, ictimai maraqların qorunması və səmərəli nəzarət mexanizmlərinin gücləndirilməsi ilə müşayiət olunmalıdır. Bu yanaşma həm investisiya mühitinin yaxşılaşdırılmasına, həm də infrastruktur layihələrinin uzunmüddətli sosial-iqtisadi effektlərinin artırılmasına şərait yaradır.*

***Açar sözlər:*** *investisiya, infrastruktur, kapital, dövlət, maliyyə.*

## GİRİŞ

İnfrastruktur investisiyaları hər bir ölkənin sosial-iqtisadi inkişafının mühüm tərkib hissəsi hesab olunur. Müasir dövrdə yol-nəqliyyat şəbəkəsi, enerji təminatı, su və kanalizasiya sistemləri, telekommunikasiya və digər infrastruktur sahələrinin inkişafı iqtisadiyyatın səmərəli fəaliyyətini, əhalinin həyat keyfiyyətinin yüksəlməsini və biznes mühitinin rəqabət qabiliyyətini təmin edən əsas amillərdəndir. Bu baxımdan, infrastruktur layihələrinin maliyyələşdirilməsi və onların dayanıqlı şəkildə idarə olunması dövlət siyasətində prioritet istiqamət kimi formalaşmışdır.

Dövlət tənzimlənməsi infrastruktur investisiyalarında yalnız maliyyə dəstəyi ilə məhdudlaşmır, həm də iqtisadiyyatın strateji inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi, hüquqi-normativ bazanın yaradılması və investisiya mühitinin sabitliyinin qorunması kimi funksiyaları özündə birləşdirir. İnfrastruktur layihələrinin yüksək kapitallı və uzunmüddətli olması onların həyata keçirilməsində risklərin artmasına səbəb olur. Buna görə də dövlətin rolu risklərin idarə olunması, şəffaflığın təmin edilməsi, resursların optimal bölgüsü və regional balansın qorunması baxımından zəruridir. Bununla yanaşı, dövlət–özəl tərəfdaşlığı modeli infrastruktur investisiyalarının inkişafında mühüm mexanizm hesab olunur. Bu model dövlətin tənzimləyici və nəzarətçi funksiyalarını özəl sektorun maliyyə və idarəetmə imkanları ilə birləşdirərək daha

səmərəli nəticələr əldə etməyə şərait yaradır. Lakin praktiki müstəvidə bir sıra çətinliklər mövcuddur: layihələrin gecikməsi, səmərəsiz xərclənmə, korrupsiya riskləri və effektiv monitorinq mexanizmlərinin olmaması kimi problemlər dövlət tənzimlənməsinin gücləndirilməsini zəruri edir (T.S.Vəliyev,2000,s.42).

Beləliklə, infrastruktur investisiyalarının inkişafında dövlət tənzimlənməsinin rolu həm iqtisadi artımın təmin edilməsində, həm də sosial rifahın gücləndirilməsində həlledici əhəmiyyətə malikdir. Bu sahədə səmərəli dövlət siyasəti yalnız iqtisadi sabitlik üçün deyil, həm də uzunmüddətli dayanıqlı inkişaf üçün əsas şərtlərdən biri hesab olunur.

**NƏZƏRİ YANAŞMALAR**

Qloballaşma şəraitində ölkələrin rəqabət üstünlüyünü müəyyən edən əsas amillərdən biri infrastrukturun keyfiyyəti və davamlı inkişafıdır. Azərbaycan kimi sürətlə inkişaf edən və regional nəqliyyat-logistika mərkəzinə çevrilən bir ölkə üçün infrastruktur layihələri həm milli iqtisadiyyatın dayanıqlığını təmin edir, həm də beynəlxalq inteqrasiyanı gücləndirir. Azad edilmiş ərazilərin bərpası və genişmiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsi bu məsələnin aktuallığını daha da artırır. Dövlətin strateji yanaşması yalnız mövcud tələbatı qarşılamağa deyil, həm də gələcəkdə innovativ və ekoloji davamlı infrastruktura əsaslanan inkişafı təmin etməyə yönəlməlidir (Əhmədov M.A., Hüseyn A.C.,2011,s.59).

Bu mövzunun araşdırılması infrastruktur investisiyalarının daha səmərəli həyata keçirilməsi üçün nəzəri və praktiki tövsiyələrin hazırlanmasına imkan verəcək. Nəticələr dövlət orqanları, özəl sektor nümayəndələri və beynəlxalq tərəfdaşlar üçün qərarların qəbulunda faydalı ola bilər. Bundan əlavə, tədqiqatın elmi dəyəri ondan ibarətdir ki, o, dövlət tənzimlənməsi ilə bağlı mövcud nəzəriyyələri Azərbaycan şəraitinə uyğunlaşdıraraq, yeni yanaşmaların tətbiqini əsaslandırır.

**TƏHLİL**

İnfrastruktur investisiyaları iqtisadiyyatın dayanıqlı inkişafını təmin edən əsas amillərdən biri hesab olunur. Yüksək kapitallı və uzunmüddətli layihələrdən ibarət olan infrastruktur sahəsi dövlətin birbaşa müdaxiləsini, strateji planlaşdırmanı və koordinasiyanı tələb edir. Yol, enerji, rabitə, su təchizatı və sosial infrastruktur layihələri yalnız iqtisadi dövriyyəni genişləndirmir, həm də əhalinin rifahına, biznes mühitinin keyfiyyətinə və ölkənin beynəlxalq rəqabət qabiliyyətinə ciddi təsir göstərir.

Azərbaycan Respublikası "İnvestisiya fəaliyyəti haqqında" qanuna əsaslanaraq investisiya fəaliyyətinə dövlət tənzimlənməsinin forma və prinsiplərini müəyyən edir. Bu qanunda dövlət tənzimlənməsi vergi sistemində güzəştlər, subsidiyalar, kredit və amortizasiya siyasətinin istifadəsi, standartların tətbiqi və investisiya layihələrinin nəzarəti kimi alətlər vasitəsilə həyata keçirilə bilər. Bundan əlavə, Azərbaycanda dövlət-infrastruktur investisiyalarının əsas koordinasiya mexanizmi "Dövlət İnvestisiya Proqramı" (State Investment Program — SIP) çərçivəsində həyata keçirilir. Bu proqram vasitəsilə dövlət böyüklü infrastruktur layihələrini seçir, prioritet investisiya portfelini müəyyənləşdirir və maliyyələşdirməni yönəldir.

**Cədvəl 1**

**Azərbaycanın əsas kapital investisiyalarının strukturu və payları**

| Göstərici | Dövr / tarix | Məbləğ / Faiz |
|---|---|---|
| Əsas kapitala yönəldilmiş investisiyalar | 2025-ci ilin yanvar-avqust ayları | 11 374,5 milyon manat |
| Daxili investisiyaların payı | eyni dövr | 75,4 % |
| Tikinti-quraşdırma işlərinə ayrılan pay | eyni dövr | 78,1 % |
| Sektor üzrə pay (məhsul, xidmət, yaşayış) | 2025-ci ilin yanvar-avqust ayları | Məhsul istehsalına ~ 50 %, xidmətə ~ 33–34 %, yaşayış tikintisinə ~ 16–17 % |
| Əsas kapitala yönəldilən investisiyaların azalması | 2025-ci ilin I rübü | 10,1 % azalma |

| | | |
|---|---|---|
| Sektor üzrə pay (I rübdə) | 2025-ci ilin I rübü | Məhsul istehsalına ~ 52,3 %, xidmətə ~ 28,0 %, yaşayış tikintisinə ~ 19,7 % |
| Qeyri-neft sektoruna investisiya artımı | 2022 (yanvar-noyabr) | ~ 8,2 % artım |
| Xarici investisiya payı | 2022 (yanvar-noyabr) | 22,8 % |

***Mənbə:*** *https://www.stat.gov.az/news/index.php*

2024-cü ildə Azərbaycanda əsas kapitala yönəldilmiş investisiyaların ümumi məbləği 21 435,1 milyon manat təşkil etmişdir ki, bu da əvvəlki illə müqayisədə 0,7 % azalma deməkdir. Bu rəqəm göstərir ki, ölkədə investisiya prosesləri müəyyən qədər sabit olsa da, iqtisadiyyatın genişlənmə templərinə uyğun olaraq daha böyük həcmdə sərmayələrin cəlb olunmasına ehtiyac qalmaqdadır.

İnvestisiyaların mənbələri baxımından diqqət çəkən əsas göstərici onların 84,7 %-nin daxili resurslar hesabına formalaşmasıdır. Bu, daxili kapitalın iqtisadiyyata yönləndirilməsi baxımından müsbət amildir, lakin xarici investisiyaların həcminin nisbətən aşağı qalması iqtisadiyyatın beynəlxalq maliyyə axınlarından daha geniş miqyasda faydalanmasının zəruriliyini göstərir. Digər tərəfdən, investisiyaların 72,4 %-i tikinti-quraşdırma işlərinə sərf olunmuşdur ki, bu da iqtisadiyyatın fiziki infrastrukturunun möhkəmləndirilməsinin dövlət siyasətində prioritet olduğunu sübut edir.

Sektorlar üzrə bölgü də iqtisadiyyatın struktur dəyişikliklərini əks etdirir. Belə ki, məhsul istehsalına yönəldilmiş investisiyaların 49,6 %-i sənaye və kənd təsərrüfatı kimi real sektorun inkişafını dəstəkləyir. Xidmət sektoruna yatırılan 38,4 % turizm, nəqliyyat, rabitə və digər xidmət sahələrinin genişləndirilməsinə yönəlmişdir ki, bu da qeyri-neft sektorunun şaxələndirilməsi baxımından əhəmiyyətlidir. Yaşayış tikintisinə ayrılan 12 %-lik pay isə əhalinin sosial rifahının yaxşılaşdırılmasına, demoqrafik artım və urbanizasiya proseslərinə uyğun yeni yaşayış məkanlarının yaradılmasına xidmət edir (stat.gov.az).

Dövlət həmçinin infrastrukturun genişləndirilməsi və modernləşdirilməsi üçün xarici kreditlərdən istifadə mexanizmlərini aktivləşdirməkdədir. 2024-cü ildə maliyyə naziri tərəfindən bildirildiyi kimi, yaxın illərdə böyük infrastruktur layihələrinin maliyyələşdirilməsi məqsədilə 5 milyard ABŞ dolları həcmində kreditlərin cəlb edilməsi nəzərdə tutulur. Bu addım ölkənin beynəlxalq maliyyə institutları ilə əməkdaşlığını genişləndirməklə yanaşı, yeni texnologiyaların və müasir idarəetmə təcrübələrinin ölkəyə gətirilməsinə də şərait yarada bilər. Xüsusilə, enerji sektorunda "yenilənə bilən enerji" layihələrinin inkişafı dövlətin strateji tənzimləmə tədbirləri ilə dəstəklənir. Zəmanətli tariflərin tətbiqi, güzəştli kreditlər və dövlət dəstək proqramları investorlar üçün əlavə stimullar yaradır. Bu yanaşma yalnız enerji təhlükəsizliyini gücləndirmir, həm də Azərbaycanın yaşıl iqtisadiyyat modelinə keçidini sürətləndirir. Gələcəkdə bərpa olunan enerji layihələrinin payının artması ölkənin karbon emissiyalarını azaltmaq, beynəlxalq iqlim öhdəliklərinə əməl etmək və ekoloji dayanıqlığı təmin etmək baxımından xüsusi əhəmiyyət kəsb edir (İnvestisiya mühitinin yaxşılaşdırılmasına mane olan problemlərin təhlili və qiymətləndirilməsi məsələləri // Elmi Əsərlər jurnalı (AMEA İqtisadiyyat İnstitutu), Bakı. 2019. № 01. – s.76-83).

Ümumilikdə, qeyd olunan göstəricilər və tədbirlər onu deməyə əsas verir ki, Azərbaycan infrastruktur və kapital qoyuluşları sahəsində dövlət tənzimlənməsinin aktiv rolunu qorumaqla yanaşı, həm daxili, həm də xarici maliyyə mənbələrinin optimal istifadəsinə çalışır. Lakin investisiya həcmlərinin artırılması, bölgələr üzrə balanslı inkişafın təmin edilməsi və layihələrin icrasında səmərəliliyin yüksəldilməsi qarşıda duran əsas vəzifələrdən olaraq qalmaqdadır.

Dövlət tənzimlənməsi infrastruktur investisiyalarında əsasən üç funksiyanı yerinə yetirir:

1. Strateji istiqamətlərin müəyyənləşdirilməsi.

Azərbaycanda infrastruktur layihələrinin prioritetləşdirilməsi dövlətin iqtisadi siyasətinin əsas tərkib hissəsidir. "Dövlət İnvestisiya Proqramı" çərçivəsində hər il nəqliyyat, enerji, kommunal xidmətlər və sosial infrastruktur obyektlərinə ayrılan vəsaitlər dəqiq müəyyən olunur. Xüsusilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən "Böyük Qayıdış"

proqramı çərçivəsində yeni yollar, dəmir yolu xətləri, elektrik stansiyaları və sosial obyektlər inşa edilir. Bu yanaşma həm regional balansın qorunmasına, həm də kənd və şəhər arasındakı infrastruktur fərqlərinin azaldılmasına xidmət edir.

2. Maliyyə dəstəyi və investisiya mühiti.

Azərbaycan hökuməti infrastruktur layihələrinin maliyyələşdirilməsində həm dövlət büdcəsini, həm də xarici maliyyə mənbələrini fəal şəkildə işə salır. 2024-cü ildə əsas kapitala yönəldilmiş investisiyaların 21,4 milyard manat təşkil etməsi və bu vəsaitin 84,7 %-nin daxili mənbələrdən qarşılanması daxili resursların gücünü göstərir. Bununla yanaşı, beynəlxalq maliyyə institutları – Dünya Bankı, Asiya İnkişaf Bankı, EBRD və Asiya İnfrastruktur İnvestisiya Bankı ilə əməkdaşlıq çərçivəsində milyardlarla dollar həcmində kreditlər cəlb edilir. Məsələn, maliyyə naziri 2024-cü ildə açıqlamışdır ki, böyük infrastruktur layihələrinin icrası üçün əlavə 5 milyard ABŞ dolları həcmində beynəlxalq kreditlərin cəlb edilməsi planlaşdırılır. Bundan başqa, vergi güzəştləri, subsidiyalar və dövlət zəmanətləri investorların marağını artıran mühüm mexanizmlərdir.

3. Nəzarət və monitorinq.

Layihələrin icrasında dövlət orqanları tərəfindən nəzarət mexanizmləri mövcuddur. Hesablama Palatası, Maliyyə Nazirliyi və digər qurumlar investisiya vəsaitlərinin istifadəsinə nəzarət edir. Bununla belə, infrastruktur layihələrinin şəffaflığı ilə bağlı problemlər qalmaqdadır. Tender proseslərinin açıq olmaması, hesabatlılığın tam təmin edilməməsi və ictimai monitorinq mexanizmlərinin zəifliyi korrupsiya risklərini artırır (Ölkənin investisiya mühitinin formalaşması və cəlbediciliyinin artırılmasının tənzimlənməsi istiqamətləri.// "Audit" jurnalı (BBU). 2018. №3. – S.11-20).

Azərbaycanda son illərdə dövlət–özəl tərəfdaşlığı (DÖT) infrastrukturun inkişafında mühüm rol oynamağa başlamışdır. Məsələn, Bakı–Quba–Rusiya sərhədi avtomobil yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və bir sıra enerji layihələri bu model çərçivəsində həyata keçirilmişdir. Enerji sektorunda xüsusilə "Masdar" (BƏƏ) və "ACWA Power" (Səudiyyə Ərəbistanı) kimi şirkətlərlə əməkdaşlıq çərçivəsində Günəş və Külək elektrik stansiyalarının inşası buna bariz nümunədir. Bu yanaşma dövlətin normativ və strateji imkanlarını özəl sektorun maliyyə və idarəetmə bacarıqları ilə birləşdirir. Lakin, DÖT layihələrində uzunmüddətli müqavilələrin icrasında tərəflər arasında gəlir-risk balansının qorunması və məsuliyyət bölgüsündə problemlər qalmaqdadır.

İnfrastruktur investisiyalarının inkişafında dövlət tənzimlənməsinin uğurları ilə yanaşı, bir sıra problemlər də mövcuddur:

Maliyyə səmərəsizliyi.

Bəzi iri infrastruktur layihələrində planlaşdırma zamanı düzgün iqtisadi hesablamaların aparılmaması əlavə xərclərə gətirib çıxarır. Məsələn, tikinti-quraşdırma işlərinin payı 2024-cü ildə 72,4 % təşkil etsə də, müəyyən layihələrdə büdcə vəsaitlərinin artıq xərclənməsi müşahidə olunur.

Gecikmələr.

Azərbaycanda infrastruktur obyektlərinin tikintisi zamanı gecikmələr realdır. Bakı–Tbilisi–Qars dəmir yolu layihəsinin istifadəyə verilməsinin bir neçə dəfə təxirə salınması buna nümunədir. Bu cür gecikmələr iqtisadi itkilərə və sosial narazılıqlara səbəb olur.

Korrupsiya riskləri.

Şəffaf olmayan tender prosedurları, layihə icrasında hesabatlılığın zəif olması və vəsaitlərin məqsədli xərclənməməsi səmərəliliyi zəiflədir. Bu səbəbdən beynəlxalq reytinqlərdə də Azərbaycanın infrastruktur layihələrində korrupsiya riski hələ də mövcud problem kimi qeyd olunur.

Regional disbalans.

Bakıda və iri şəhərlərdə infrastruktur sürətlə inkişaf etdiyi halda, ucqar bölgələrdə əsas kommunikasiya, enerji və yol şəbəkəsində hələ də boşluqlar qalır. Bu isə regionlararası inkişafda disbalans yaradır və əhalinin sosial təminatında bərabərsizliyə səbəb olur.

Monitorinq və qiymətləndirmə çatışmazlıqları.

Layihələrin səmərəliliyinin müasir metodlarla qiymətləndirilməsi tam təmin olunmur. Bu səbəbdən, investisiya qoyuluşlarının sosial-iqtisadi effektləri haqqında dəqiq nəticələr əldə etmək çətinləşir.

Azərbaycanda dövlət tənzimlənməsi infrastruktur investisiyalarında mühüm rol oynayır, lakin səmərəliliyin artırılması üçün şəffaflıq, regional balans, monitorinq sistemləri və risklərin idarə olunması istiqamətində əlavə tədbirlərə ehtiyac qalmaqdadır.

**NƏTİCƏ**

İnfrastruktur investisiyalarının inkişafında dövlət tənzimlənməsi həm iqtisadi artım, həm də sosial rifah üçün mühüm şərtdir. Lakin səmərəlilik problemlərinin mövcudluğu göstərir ki, dövlət yalnız maliyyə dəstəyi ilə kifayətlənməməli, həm də layihələrin planlaşdırılması, idarə olunması və monitorinq mexanizmlərinin təkmilləşdirilməsinə diqqət yetirməlidir. Effektiv tənzimləmə və şəffaf idarəetmə vasitəsilə infrastruktur layihələri uzunmüddətli perspektivdə milli iqtisadiyyatın rəqabət qabiliyyətini artıracaq və sosial-iqtisadi inkişafın dayanıqlığını təmin edəcək.

***İstifadə edilmiş ədəbiyyat:***


**1.** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. stat.gov.az

**2.** T.S.Vəliyev. (2000). «İnfrastrukturlar: mahiyyəti, təsnifatı və əhəmiyyəti» Bakı-Elm,169 səh.

**3.** Əhmədov M.A., Hüseyn A.C. (2011). İqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları. Metodik vəsait. Bakı: "İqtisad Universiteti". -120 səh.

**4.** Ölkənin investisiya mühitinin formalaşması və cəlbediciliyinin artırılmasının tənzimlənməsi istiqamətləri. // "Audit" jurnalı (BBU). 2018. №3. – S.11-20

**5.** İnvestisiya mühitinin yaxşılaşdırılmasına mane olan problemlərin təhlili və qiymətləndirilməsi məsələləri // Elmi Əsərlər jurnalı (AMEA İqtisadiyyat İnstitutu), Bakı. 2019. № 01. – s.76-83.



**U.S.Mehdiyev**

*Advisor to the Rector, Azerbaijan State Pedagogical University*

**S.L.Guliyev**

*master student, Azerbaijan University of Tourism and Management*


## The role of state regulation in the development of infrastructure investments and efficiency problems


**Abstract**

*State regulation in the development of infrastructure investments is of great importance in terms of sustainable economic growth and improving social welfare. State regulation is mainly carried out through determining investment priorities, forming a legal and regulatory framework, attracting financial sources and ensuring transparency in the implementation of projects. Since infrastructure projects require long-term capital investments, their financing and risk sharing necessitate the coordinating role of the state. Public-private partnership mechanisms are of particular importance in this process. At the same time, efficiency problems also arise during regulation. Project delays, non-targeted spending of funds, corruption risks and weak evaluation mechanisms can reduce the effectiveness of investments. On the other hand, irrational planning and regional inequalities create imbalances in socio-economic development. Therefore, the role of state regulation in infrastructure investments should not be limited to financial provision alone, but should also be accompanied by strategic planning, protection of public interests, and strengthening of effective control mechanisms. This approach creates conditions for both improving the investment climate and increasing the long-term socio-economic effects of infrastructure projects.*



***Keywords:*** *investment, infrastructure, capital, state, finance.*